48 (1354) 5-11 dekabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## ÖLKƏLƏRİMİZ ARASINDA DOSTLUQ, QARDAŞLIQ VƏ MÜTTƏFİQLİK MÜNASİBƏTLƏRİ UĞURLA İNKİŞAF EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edib.

Prezident İlham Əliyev Mövlud Çavuşoğluna Qərbi Azərbaycan İcmasının Bakıda keçirəcəyi Beynəlxalq Konfransda iştirakına görə minnətdarlığını bildirərək, bu tədbirin əhəmiyyətinə toxunub.

Azərbaycanın ev sahibliyi etdiyi COP29-un çox yüksək səviyyədə təşkil olunması ilə bağlı Prezident İlham Əliyevi təbrik edən Mövlud Çavuşoğlu bu tədbiri tarixi zirvə toplantısı kimi qiymətləndirərək, burada qəbul edilmiş qərarların böyük önəm daşıdığını vurğulayıb.

Dövlətimizin başçısı da COP29-un yüksək səviyyədə təşkil olunduğunu və əhəmiyyətini qeyd edərək, Türkiyə Prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin həmin tədbirdə iştirakını bir daha yüksək qiymətləndirib və bunun COP29-un önəminin daha da artırılması işinə töhfə verdiyini bildirib. Prezident İlham Əliyev xeyli sayda dövlət və hökumət başçısının, qonaqların tədbirdə iştirakına toxunub və konfransın qərarların qəbul edilməsi baxımından çox uğurlu olduğunu deyib, COP29-un Azərbaycanın potensialını və liderlik qabiliyyətini bir daha bütün dünyaya nümayiş etdirdiyini vurğulayıb. Dövlətimizin başçısı bunun Türk dünyasının da növbəti bir uğuru olduğunu deyib.

Görüşdə ölkələrimiz arasında dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlərarası sahədə uğurla inkişaf etdiyi bildirilərək, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olunub.

## MİLLİ MƏCLİSDƏ 2025-Cİ İLİN DÖVLƏT BÜDCƏSİ VƏ BÜDCƏ ZƏRFİNƏ DAXİL OLAN QANUN LAYİHƏLƏRİ İKİNCİ OXUNUŞDA TƏSDİQLƏNİB



***Dekabrın 3-də Sahibə Qafarovanın sədrliyi ilə parlamentin payız sessiyasında növbəti plenar iclası keçirilib.***

Milli Məclisin sədri Sahibə Qafarova gündəliyə 10 məsələnin – 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələrinin ikinci oxunuşda daxil edildiyini diqqətə çatdırıb.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov birinci məsələ - "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib.

O bildirib ki, "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi həm komitələrdə, həm də Milli Məclisin plenar iclasında birinci oxunuşda geniş müzakirə olunub. Plenar iclasdan sonra büdcə zərfinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində aidiyyəti dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə ikinci oxunuşda müzakirəsi keçirilib və komitə üzvlərinin qaldırdığı məsələlərə münasibət bildirilib.

Azər Əmiraslanov qeyd edib ki, 2025-ci ilin büdcə zərfində makroiqtisadi sabitlik, davamlı iqtisadi artım və büdcə dayanıqlılığı, iqtisadi siyasətin prinsipləri və əsas hədəfləri müəyyən edilir.

Sonra iclasda məsələ ətrafında müzakirələr aparılıb.

Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra gündəliyin növbəti iki məsələsi – "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihələri təqdim edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bu məsələlər barədə məlumatında hər iki layihənin birinci oxunuşda ətraflı təqdim edildiyini söyləyib. O xatırladıb ki, Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsinin gəlir və xərcləri cari illə müqayisədə 10,5 faiz, İşsizlikdən Sığorta Fondunun növbəti il büdcəsinin gəlir və xərcləri isə cari illə müqayisədə 9,5 faiz çoxdur.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

Layihəyə əsasən, əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği 2025-ci il üçün ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyən edilir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məsələyə dair bu komitənin müsbət rəy verdiyini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Musa Quliyev "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. O, 2025-ci il üçün ehtiyac meyarının həddinin 285 manat məbləğində müəyyən edildiyini diqqətə çatdırıb. Komitə sədri artıq üç ildir ki, ehtiyac meyarının yaşayış minimumuna bərabər tutulduğunu qeyd edib.

Azər Əmiraslanov Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, Məcəlləyə edilən dəyişikliklərdə güzəştlərin miqyasının və dairəsinin genişləndirildiyini, bunun o cümlədən humanitar, mədəniyyət sahələrinə də şamil edildiyini deyib.

Sonra komitə sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib.

Növbəti məsələ - "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumatı da komitə sədri Azər Əmiraslanov təqdim edib. O bildirib ki, nağd hesablaşma limitləri ilə bağlı olan bu qanun layihəsi ilə əlaqədar hər hansı bir qeyd, təklif daxil olmayıb.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) mahiyyəti barədə məlumatı diqqətə çatdırıb.

Daha sonra Azər Əmiraslanov gündəliyin sonuncu məsələsi olan "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Bildirib ki, qanun layihəsi Vergi Məcəlləsində nəzərdə tutulan vergi güzəştlərinin gömrük güzəştləri ilə tamamlanmasını, başqa sözlə, dəstəklənməsini nəzərdə tutur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

## MƏRKƏZİ NƏBATAT BAĞINDA HƏYATA KEÇİRİLƏN YENİDƏNQURMA TƏDBİRLƏRİ ÖLKƏMİZDƏ BİTKİ BİOMÜXTƏLİFLİYİNİN QORUNMASINA XİDMƏT EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Bakıda abadlıq, əsaslı yenidənqurma, tikinti və genişləndirmə işlərindən sonra Mərkəzi Nəbatat Bağının açılışında iştirak ediblər.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Mərkəzi Nəbatat Bağında yaradılan şəraitlə bağlı ətraflı məlumat verib.

Qeyd edək ki, dövlətimizin başçısı Mərkəzi Nəbatat Bağında görülən işləri daim diqqət mərkəzində saxlayıb. Belə ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iki dəfə - 2023-cü ilin iyul və bu ilin iyun ayında Mərkəzi Nəbatat Bağında görülən işlərlə tanış olmaları bunu bir daha təsdiq edir.

Bildirilib ki, əsaslı yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 45 hektara çatdırılıb. Bağın ərazisində dördmərtəbəli yeni inzibati bina inşa edilib, aypara formalı ikimərtəbəli qədim inzibati binada isə əsaslı təmir-bərpa işləri aparılıb. Bağın ərazisində iki restoran fəaliyyət göstərəcək.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları əsasında Mərkəzi Nəbatat Bağında həyata keçirilən abadlıq və yenidənqurma tədbirləri ölkəmizdə bitki biomüxtəlifliyinin qorunmasına və səmərəli istifadəsinə göstərilən xüsusi diqqətin bariz nümunəsidir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun mühafizəsi məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı ekoloji təmizliyin qorunması, elmi araşdırma, tədris və maarifləndirmə baxımından mühüm əhəmiyyətə malikdir. Burada dünyanın müxtəlif iqlim zonalarından toplanan bitki kolleksiyaları yalnız onların mühafizəsi məqsədilə deyil, həm də ölkədə bu sahədə elmi tədqiqatların davamlı inkişafına xidmət edir.

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınıb, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulub. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.

## Azərbaycan Mərkəzi və Şərqi Avropa regional qrupuna sədr və COP16 Bürosuna üzv seçilib

Dekabrın 2-13-də Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində keçirilən BMT-nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasının 16-cı Tərəflər Konfransı (COP16) çərçivəsində Azərbaycan Respublikası yekdilliklə təmsil olunduğu Mərkəzi və Şərqi Avropa regional qrupuna iki il müddətinə sədr və COP16 Bürosuna üzv seçilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, sədrlik dövründə ölkəmiz, həmçinin qurumun Tərəflər Konfransının vitse-prezidentliyini də həyata keçirəcək.

Qeyd olunub ki, qrupa Azərbaycan Respublikası ilə birlikdə Şərqi və Mərkəzi Avropadan 15 dövlət daxildir.

2001-ci ildə COP5 çərçivəsində təsis edilmiş UNCCD-nin Şərqi və Mərkəzi Avropa qrupunun Regional Fəaliyyət Proqramı 2015-ci ildə təsdiqlənib. Qrup çərçivəsində regional fəaliyyətin gücləndirilməsi, biliklərin artırılması, ekoloji kənd təsərrüfatı və sair prioritet sahələr müəyyən olunub.

On iki regionun təmsil olunduğu COP16 Bürosunun əsas vəzifələri COP qərarlarının həyata keçirilməsinə nəzarətin və gələcək COP iclasları üzrə işlərin təşkilidir. COP Bürosu, həmçinin COP sessiyaları arasında həyata keçirilən öhdəliklərin icrasına nəzarət edir.

## Rusiya və Azərbaycan Xəzər dənizinin dayazlaşmasının qarşısını almaq üçün çalışır

Rusiya və Azərbaycan prezidentləri Xəzər dənizinin dayazlaşmasının qarşısını almaq üçün birgə işləmək barədə razılığa gəliblər.

Bu barədə Rusiya Prezidenti Vladimir Putin gənc alimlərlə görüşündə danışıb.

**"Bakıya səfər etdikdən sonra İlham Heydər oğlu ilə razılığa gəldik ki, bu mövzuda birgə işləyəcəyik. Mən artıq Rusiya Federasiyası Hökumətinə müvafiq fəaliyyət proqramının hazırlanması ilə bağlı tapşırıq vermişəm",** - deyə Rusiyanın dövlət başçısı bildirib.

O qeyd edib ki, bu məsələ Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə görüşdə də müzakirə olunub.

**"Xəzərin dayazlaşması hər kəsi narahat edir. Əlbəttə ki, bundan açıq və nəzərəçarpacaq dərəcədə əziyyət çəkən heyvan növlərinə diqqət yetirmək lazımdır. Amma ümumilikdə bu, böyük problemdir", -** deyə Rusiya lideri vurğulayıb.

O qeyd edib ki, Xəzərin Aral dənizinin taleyini təkrarlamasına yol vermək olmaz və onun dayazlaşmasının qarşısını almaq üçün bütün tədbirlərin görülməsi vacibdir.

**"Mən, hətta səylərimizi birləşdirməklə belə nəsə edə biləcəyimizdən əmin deyiləm, çünki təbiət çox güclü bir sistemdir. Buna baxmayaraq, bizdən asılı olan nə varsa, onu etməliyik", -** deyə Putin bildirib.

# "COP29-u Azərbaycanda keçirməyimiz, qlobal ətraf mühit təşəbbüslərinin önündə olmaq üçün göstərdiyimiz səyləri bir daha nümayiş etdirir"

"Dini və mədəni köklərlə bir-birinə bağlı olan ölkələrimiz arasında münasibətlər dövlət başçılarımızın siyasi iradəsi və səmimi dostluğu sayəsində yüksələn xətt üzrə inkişaf edir, tərəfdaşlığımızın əhatə dairəsi genişlənir".



Bu sözləri Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) milli bayramı - müstəqilliyin 53-cü ildönümü münasibətilə keçirilən rəsmi qəbulda iqtisadiyyat naziri Mikayıl Cabbarov söyləyib.

*"Diqqətinizə çatdırmaq istərdim ki, iki ölkə arasında "Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" üzrə fəal danışıqlar aparılır. Bu sənədin imzalanması iqtisadi və ticarət əlaqələrimizin inkişafına əhəmiyyətli töhfə verəcək, xüsusilə ticarətin liberallaşdırılması, sərmayə axınlarının intensivləşməsi, həmçinin mal və xidmətlər üçün bazara çıxış imkanlarının artırılması yolu ilə əməkdaşlığı daha da dərinləşdirəcək"*, - deyə M.Cabbarov qeyd edib.

Nazir əlavə edib ki, dost ölkə və etibarlı tərəfdaşımız olan Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrimizin dərinləşməsinə xüsusi əhəmiyyət veririk, məqsədimiz birgə fəaliyyətimizi daha da şaxələndirməkdir. İqtisadi əməkdaşlığımızı, xüsusən qarşılıqlı hədəflərimizə mühüm töhfə verə biləcək davamlı inkişaf və enerji təhlükəsizliyi sahələrində işbirliyini daha da genişləndirmək üçün böyük potensial mövcuddur.

*"2023-cü ildə Dubayda keçirilən COP28-dən sonra bu il COP29-u Azərbaycanda keçirməyimiz, qlobal ətraf mühit təşəbbüslərinin önündə olmaq üçün göstərdiyimiz səyləri bir daha nümayiş etdirir"*, - deyə nazir sonda vurğulayıb.

# Azərbaycanın sədrliyi ilə QDİƏT-nin turizmlə bağlı iclası keçirilib



Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Turizm üzrə İşçi qrupunun videokonfrans formatında 3-cü iclası Azərbaycanın sədrliyi, Dövlət Turizm Agentliyinin (DTA) nümayəndələrinin iştirakı ilə onlayn formatda keçirilib.

Agentlikdən bildirilib ki, iclasda DTA-nın aparat rəhbərinin müavini, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Cəlil Məlikov və təşkilatın baş katibinin müavini Dimitrios Rallis çıxış ediblər.

Türkiyə, Gürcüstan, Ermənistan, Yunanıstan, Rumıniya, Rusiya, Moldova, Şimali Makedoniya və Ukraynanın təmsil olunduğu iclas zamanı Azərbaycanın təşkilata sədrlik etdiyi 2023-2024-cü illər ərzində fəaliyyət istiqamətləri müzakirəyə çıxarılıb, turizm üzrə həyata keçirilə biləcək layihələrə dair fikri mübadiləsi aparılıb.

Üzv dövlətlərə noyabr ayında Azərbaycanın ev sahibliyi ilə keçirilmiş COP29 tədbiri çərçivəsində təşkil olunan "Turizm Günü" tədbirləri, həmçinin Qlazqo Bəyannaməsinə qoşulma təşəbbüsü haqqında ətraflı məlumat verilib.

İclasın yekununda "2023-2024-cü illər üzrə QDİƏT-nin Turizm sahəsində əməkdaşlıq üzrə İşçi Qrupunun Fəaliyyət Planı" təsdiq edilib.

# Avropada qazın qiyməti son bir ilin maksimumuna qalxıb – Bu, Azərbaycan üçün nə deməkdir?

Azərbaycanın ixracında 30 faiz paya sahib olan təbii qazın qiyməti Avropada havaların soyuq keçməsi və geosiyasi risklər səbəbindən artaraq son bir ilin maksimum səviyyəsinə çatıb.

Banker.az xəbər verir ki, Niderland qaz habında hər min kub metr TTF qazın qiyməti 530 dollardan baha olub.

Bu da gün ərzində qiymətin 0.4 faizə yaxın bahalaşması deməkdir. Təbii qazın hər 1000 kubmetri bu ilin fevralında 250 dollardan aşağı düşmüşdü.

Qərbi Avropada temperaturun aşağı düşməsi ehtimalı istilik tələbatını artıracaq. Bu isə qaz ehtiyatlarının adət etdiyimizdən daha sürətlə azalması səbəbindən ticarətçiləri narahat edir. Həm də gələn il üçün ehtiyat toplama səylərini çətinləşdirə bilər.

Qaz qiymətləri bu il təxminən 50% artıb və son həftələrdə kəskin şəkildə yüksəlib. Bazar ilin sonunda Moskva ilə Kiyev arasındakı tranzit razılaşmasının müddəti bitəndə Rusiyanın qaz tədarükünü dayandırma ehtimalına hazırlaşır.

Hələlik Ukrayna üzərindən Rusiya qazının ixracı normal şəkildə davam edir.

Avropada qaz anbarları hazırda 85% doludur, keçən ilin eyni dövründə bu göstərici 95% idi. Avropa İttifaqı gələn ilə kifayət qədər hazırlıqlı olmaq üçün ehtiyatları ən azı 50% səviyyəsində saxlamağı hədəfləyərək tələblərini artırıb.

***"Avropa qaz qiymətləri üçün risklər yuxarı meyillidir, çünki qışın soyuq başlaması ehtiyatları azalda bilər",*** - deyə "Bloomberg Intelligence" analitikləri Patrisiyo Alvarez və Xoas Martins qeyd ediblər. Onların fikrincə, hətta ekstremal hava şəraiti olmadan belə ehtiyatlar mövsümü 39% doluluqla bitirə bilər. Bu, gələn yay dolum kampaniyasını çətinləşdirə və Asiya ilə yanacaq uğrunda rəqabəti gücləndirə bilər.

Avropa Komissiyası bildirib ki, dekabrın sonunda axınlar dayandırılarsa, Aİ Rusiyanın tədarükü olmadan da keçinə bilər. Enerji sözçüsü Anna Kaisa İtkonen bazar ertəsi qeyd edib ki, Aİ üzv dövlətlərə qaz mənbələrini diversifikasiya etməkdə kömək etməyə çalışır. O həmçinin bildirib ki, ABŞ-nin keçən ay Rusiyanın "Gazprombank"ına tətbiq etdiyi sanksiyalardan sonra qaz axınlarında heç bir pozuntu müşahidə olunmur.



**Azərbaycan qaz ixracatçısı kimi…**

Azərbaycan hazırda ixracının 30 faizini təbii qazın ixracı hesabına formalaşdırdığından bu, ölkə üçün mühüm xəbər sayıla bilər. Belə ki, ölkə təkcə ilin ilk 10 ayında 21.34 mlrd. kubmetr təbii qaz ixrac edib və bunun dəyəri 6.848 mlrd. ABŞ dollarıdır. Banker.azın hesablamalarına görə, ölkənin təbii qazın hər min kub metr ixracından gəliri 321 dollar olub. Cari qiymətlər ölkənin ixrac etdiyi təbii qazın orta qiymətini 65% üstələmiş olur. Təbii qazdan Avropaya 10.6 milyard kubmetr, Türkiyəyə 8.2 milyard kubmetr, Gürcüstana isə 1.9 milyard kubmetr qaz satılıb. Türkiyəyə TANAP-la bu müddətdə 4.7 milyard kubmetr qaz nəql olunub.

Bununla belə, Azərbaycan həm də Türkmənistandan İran üzərindən təbii qaz alır və cari ildə sabit qiymətlə – hər min kubmetrini 159 dollara alıb.

Dekabrın 1-dən Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Slovakiyanın dövlətə məxsus ən böyük enerji təchizatçısı – SPP şirkətinə təbii qaz tədarükünə başlayıb. Beləliklə, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya və Şimali Makedoniya ilə birlikdə Slovakiya Azərbaycan qazını alan on ikinci ölkə olub.

**Mənbə: www/banker.az**

# Çindən Orta Dəhlizlə Azərbaycan istiqamətində 300-cü blok-qatar yola salınıb

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM – Orta Dəhliz) ilə Çindən Azərbaycana 300-cü konteyner blok-qatarı göndərilib.

"Azərbaycan Dəmir Yolları" (ADY) QSC-dən bildirilib ki, Çinin Sian şəhərində yerləşən Qazaxıstan–Çin terminalından hərəkətə başlamış qatarın Qazaxıstan ərazisindən keçməklə 8-10 dekabr tarixlərində Bakı Beynəlxalq Dəniz Ticarət Limanına çatacağı gözlənilir.

Blok-qatarın təşkili Orta Dəhliz üzrə əsas tərəfdaşlar olan "ADY Express" və "Xi'an Free Trade Port" şirkətinin əməkdaşlığı çərçivəsində həyata keçirilib.

Bu dəhliz üzrə 300-cü blok-qatarın Çin-Qazaxıstan-Azərbaycan marşrutu ilə yola salınması əvvəlki illərin göstəricilərini əhəmiyyətli dərəcədə üstələyir və TBNM-in sürətli inkişafını, həmçinin beynəlxalq daşımalar üçün artan əhəmiyyətini təsdiqləyir. Hazırkı dövrə qədər TBNM vasitəsilə Çindən daşınan yüklərin həcmi 20 futluq konteyner ekvivalentində 27 min konteyneri keçib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 25 dəfə çoxdur.

Analoji artım yükgöndərənlərin Çinlə Avropa arasında Qazaxıstan və Azərbaycan əraziləri vasitəsilə sürətli və səmərəli bağlantını təmin edən əsas nəqliyyat marşrutlarından biri kimi TBNM-ə artan marağını nümayiş etdirir.

Qeyd edək ki, 2025-ci il üçün Çindən Azərbaycan və Avropa istiqamətində göndərilən blok-qatarların sayının 3 dəfədən çox artırılaraq il ərzində 1000-ə çatdırılması planlaşdırılır. Çindən Azərbaycana yük göndərişi ilə yanaşı, əks istiqamətdə də yükdaşımaya başlanılıb.

# 10 ayda 190 min manata yaxın maliyyə sanksiyası tətbiq edilib

Cari ilin yanvar-oktyabr ayları ərzində Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən haqsız rəqabətə yolvermə ilə əlaqədar baxılması başa çatmış işlər üzrə 5 bazar subyektinə 189,7 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilməklə müvafiq icrası məcburi göstəriş verilib.

Dövlət Xidmətindən bildirilib ki, qeyd edilən dövr ərzində 23 bazar subyekti tərəfindən digər bazar subyektinin əmtəə nişanından qanunsuz istifadə etməklə haqsız rəqabətə yolvermə əlamətləri, 29 bazar subyekti tərəfindən isə bir sıra mal və ya xidmətlərin reklamı zamanı reklam qanunvericiliyinin tələblərinin pozulması halları könüllü aradan qaldırılıb.

Bu məlumat Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının Əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun Fəaliyyət Planının tələblərinə əsasən təqdim olunur.

# "AzərEnerji" və bp şirkəti arasında müzakirələr aparılıb

"AzərEnerji" ASC-nin rəhbəri Baba Rzayevlə bp şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə prezidenti Qəri Counzun rəhbərlik etdiyi nümayəndə heyətinin görüşü olub.

ASC-dən bildirilib ki, bp şirkəti ilə Azərbaycan enerji sistemi arasındakı əməkdaşlıq münasibətlərinin müzakirə edildiyi görüşdə Səngəçal terminalının elektrik şəbəkəsinə qoşulma layihəsinin gedişatı, bu layihənin dekarbonizasiya məqsədində önəm daşıması ilə bağlı Prezident İlham Əliyevin COP29-un açılış mərasimində dediyi fikirlər xüsusi olaraq vurğulanıb.



Görüşdə Cəbrayılda tikilən 240 meqavatlıq bp "Şəfəq" Günəş Elektrik Stansiyasının enerji sistemə inteqrasiyası üçün "AzərEnerji" tərəfindən tikilən 330 kV-luq yarımstansiya və bu yarımstansiyanın 330 kV-luq "Cəbrayıl" Enerji Qovşağı ilə əlaqələndirilməsi üçün 330 kV-luq ötürmə xətlərinin çəkilməsi və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Bakıda VIII Beynəlxalq Bankçılıq Forumu keçirilib



Dekabrın 3-də Bakıda VIII Beynəlxalq Bankçılıq Forumu işə başlayıb. Forumun mövzusu etibarlı, təhlükəsiz və dayanıqlı bankçılıqdır. Forum Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Mərkəzi Bankı və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin dəstəyi ilə keçirilib.

İkigünlük tədbir Bakıda illik əsasda keçirilən iki tədbirdən biri olmaqla regionun ən nüfuzlu maliyyə-bank tədbiridir.

Qeyd edək ki, 8 ildir forum sənaye liderləri və maraqlı tərəflərin bir araya gələrək yeni ideyalar paylaşdığı, məhsul nümayiş etdirdiyi, təcrübə mübadiləsi apardığı, maliyyə texnologiyaları, rəqəmsallaşma və ödəniş ekosisteminin dərin mövzularının birlikdə müzakirə olunduğu mükəmməl bir platforma olaraq özünü sübut edib.

# "Fiziki şəxslərin əmanətlərinin dollarlaşma əmsalı 1,8 faiz azalıb"

"Oktyabrın sonuna bankların aktivləri 49,7 milyard manat təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 7,7 faiz çoxdur".

Bu barədə Azərbaycan Banklar Assosiasiyasının sədri Zakir Nuriyev Bakıda keçirilən Beynəlxalq Bankçılıq Forumunda deyib.

O qeyd edib ki, kredit portfelindəki artım isə bu tempi 3 dəfəyə yaxın artıraraq 20,6 faiz təşkil edib və ümumilikdə portfelin həcmi 27,1 milyard manat səviyyəsinə yüksəlib.

**"O cümlədən, biznes kreditləri 19,4 faizlik artımla 14,6 milyard manat həcminə çatıb. Dövlət fondları nəzərə alınmadan, yalnız bankların vəsaiti hesabına real sektora verilmiş kreditlərin həcmindəki artım isə ümumi kredit portfelindəki artımı da üstələyərək 21 faiz olub. Depozit portfeli isə təqribən 4 faizlik artım ilə 34,4 milyard manat səviyyəsinə çatıb. Buna müqabil, fiziki şəxslərin müddətli depozitlərinin həcmi 26 faiz artaraq 8,3 milyard manat təşkil edib. Fiziki şəxslərin əmanətlərinin dollarlaşma əmsalı isə 34 faiz təşkil etməkdədir və ötən ilin eyni dövrü ilə müqayisədə 1,8 faiz bəndi azalıb. Digər bir keyfiyyət göstəricisi isə ödəniş vaxtı keçən borclarla bağlıdır. Belə ki, cari ilin oktyabr ayının sonuna vaxtı keçmiş kreditlərin cəmi portfeldəki payı isə cəmi 1,7 faiz təşkil etməkdədir. Bank sektorunun cəmi balans kapitalının həcmi isə 9 faiz artaraq 6,4 milyard manat səviyyəsinə yüksəlib. Sektorun cari ilin 10 ayı ərzində əldə etdiyi faiz gəliri 3,2 milyard manat, mənfəətin həcmi isə 913,7 milyon manat təşkil edir"**, - deyə ABA sədri əlavə edib.

# COP29 VƏ YAŞIL KİTABXANALAR: EKOLOJİ DAYANIQLIQ ÜÇÜN YENİ PERSPEKTİVLƏR

***Yaşıl kitabxana konsepsiyası XX əsrin sonlarından etibarən formalaşmağa başlamış və XXI əsrdə geniş yayılmışdır. "Yaşıl" termini burada həm təbiətə olan hörməti, həm də davamlı inkişafa töhfə vermək məqsədini ifadə edir. Belə kitabxanalar təkcə bilik və informasiya məkanları olmaqla qalmır, həm də ekoloji maarifləndirmə və davamlı inkişaf prinsiplərinin təbliği üçün platforma rolunu oynayır. Bu konsepsiya kitabxana məkanlarının, idarəetmə sistemlərinin və xidmətlərinin ətraf mühitə daha az təsir etməsini təmin etmək məqsədi daşıyır.***

1970-1980-ci illəri ekoloji dayanıqlığın və ətraf mühitin qorunması ilə bağlı qlobal hərəkatın intensivləşdiyi bir dövr hesab etmək olar. Bu illər ərzində insanlar sənayeləşmə və urbanizasiyanın ətraf mühitə mənfi təsirlərini daha çox dərk etməyə başladılar. Bu kontekstdə kitabxanalar cəmiyyətin bir parçası olaraq öz fəaliyyətlərini ekoloji trendlərə uyğunlaşdırmağa çalışdılar. 1970-ci illərdə dünyada ekoloji böhranlar və ətraf mühit problemləri diqqət mərkəzinə oldu. Bu kitabxanaların cəmiyyəti ekoloji məsələlər haqqında maarifləndirməkdə rolu mühüm əhəmiyyət kəsb etdi. Onlar ekoloji mövzuda resursların toplanması, sərgilərin təşkili və ekologiya ilə bağlı təlimlərin keçirilməsində iştirak etməyə başladılar.

1990-cı illər kitabxanaların yalnız məlumat mərkəzi funksiyasından kənara çıxaraq ətraf mühitin qorunması, iqtisadi və sosial inkişafın dəstəklənməsi kimi sahələrdə yeni yanaşmaların formalaşdığı bir dövr kimi xarakterizə edilə bilər. 1992-ci ildə keçirilmiş Rio-de-Janeyro Sammiti (BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransı) beynəlxalq səviyyədə davamlı inkişaf anlayışını tanıtdı. ***Bu sammitdən sonra ekoloji, iqtisadi və sosial aspektlərin inteqrasiyası qlobal müzakirələrin mərkəzinə çevrildi. Rio Sammitində qəbul edilən prinsiplər kitabxanaların həm daxili fəaliyyətinə, həm də ictimai roluna təsir edərək davamlı inkişafın tətbiqinə yol açdı. Xüsusilə də kitabxanalar yeni binaların layihələndirilməsi prosesində davamlı inkişaf prinsiplərinə riayət etməyə başladılar.***

Yeni kitabxana binalarının tikintisində təbii işıqlandırmanın artırılması, enerji səmərəliliyini təmin edən tikinti materiallarının istifadəsi, su və enerji resurslarının optimallaşdırılması kimi məsələlərə xüsusi diqqət yetirildi. Bununla yanaşı, təkrar emal edilə bilən materialların istifadəsi və yaşıllıq sahələrinin genişləndirilməsi kitabxanaların ekoloji təsirini azaltmağa kömək etdi. Belə yanaşmalar kitabxanaların həm ekoloji dayanıqlılığı təmin etməsinə, həm də oxuculara təmiz və sağlam bir mühitdə xidmət göstərməsinə şərait yaratdı.

2000-ci illərdə 'yaşıl' dizayn və texnologiyaların inkişafı ilə birlikdə kitabxana binalarında LEED (Enerji və Ətraf Mühit Dizaynında Liderlik) və digər ekoloji sertifikatlaşdırma sistemləri tətbiq edilməyə başlandı. Bu sertifikatlaşdırma sistemləri binaların enerji səmərəliliyini artırmaq, ekoloji təsiri minimuma endirmək və davamlı tikinti praktikalarını təşviq etmək məqsədini daşıyır. LEED və digər ekoloji sertifikatlar yalnız kitabxanaların ətraf mühitə təsirini azaltmaqla kifayətlənmir, həm də istifadəçilər üçün daha rahat və sağlam mühitlərin yaradılmasına töhfə verir.



2010-cu illər ekoloji dayanıqlılığın geniş şəkildə yayıldığı bir dövr kimi səciyyələndirilir. Bu illərdə kitabxanalar yalnız məlumat mənbələri təqdim etməklə kifayətlənməmiş, həm də ekoloji dayanıqlılığı təşviq etmək üçün müxtəlif təşəbbüslər həyata keçirmişdir. Enerji qənaəti, su istifadəsinin optimallaşdırılması və təbii resursların qorunması məqsədilə bir sıra yeniliklər tətbiq edilmişdir. Bundan əlavə, ekoloji biliklərin yayılması və cəmiyyətin ətraf mühit məsələlərinə dair maarifləndirilməsi kitabxanaların sosial missiyasının ayrılmaz bir hissəsinə çevrilmişdir.

***2020-ci ildən sonra iqlim dəyişikliyi ilə mübarizə diqqət mərkəzinə çevrilmiş, yaşıl kitabxana konsepsiyası isə yeni bir mərhələyə qədəm qoymuşdur. Bu illərdə kitabxanalar yalnız fiziki məkanlar olaraq deyil, həm də ekoloji maarifləndirmə və cəmiyyətin ətraf mühit məsələlərinə dair məlumatlandırılması üçün platformalar kimi fəaliyyət göstərməyə başladı. İqlim dəyişikliyinin vacib və təxirəsalınmaz bir məsələ kimi qəbul edilməsi, kitabxanaların ekoloji layihələrdə daha fəal rol almasına təkan verdi.***

***2020-ci ildən sonra rəqəmsallaşmanın güclənməsi kağız istehsalının azalmasına, e-kitabların, onlayn və virtual resursların daha geniş istifadəsinə yol açdı. Bu dəyişikliklər kitabxanaların daha dayanıqlı şəkildə idarə olunmasını təmin etməklə yanaşı, ekoloji cəhətdən təmiz bir mühit yaratmağa da töhfə verdi. Dünya miqyasında bir çox tanınmış kitabxanalar, məsələn, Taipei İctimai Kitabxanası (2006) və Freiburg Universiteti Kitabxanası (2015) yaşıl memarlığın öncül nümunələri kimi seçilir.***

Kitabxanalar təkrar emal və enerji qənaət prinsiplərini tətbiq etməklə, həm ətraf mühiti qorumağa, həm də yeni nəsil üçün dayanıqlı təhsil və məlumat mənbələri yaratmağa başladılar. Yaşıl memarlıq və ekoloji təşəbbüslərin tətbiqi kitabxanaların cəmiyyətə verdiyi ekoloji və sosial faydaları artırmağa kömək etdi.

Belə məşhur yaşıl kitabxanalar arasında 2004-cü ildən ABŞ-da fəaliyyət göstərən Seattle Mərkəzi Kitabxanası xüsusilə diqqətəlayiqdir. Bu kitabxana yalnız müasir və innovativ dizaynı ilə deyil, həm də ekoloji prinsiplərin tətbiqinə önəm verilməsi ilə tanınır. Əsas məqsədi ənənəvi kitabxana konsepsiyasını yeniləyərək müasir texnologiyalarla inteqrasiya etmək və cəmiyyəti müasir, innovativ məlumat mərkəzi ilə təmin etməkdir.



**Şəfəq İslamova,**
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun kitabxana müdiri, tarix üzrə fəlsəfə doktoru**

Kitabxanada enerji səmərəliliyini nizamlamaq üçün böyük şüşə panellərdən istifadə olunur. Binanın fasadı təbii işıqlandırmanı maksimum dərəcədə artırmaq üçün geniş şüşələrdən ibarətdir. Bu süni işıqlandırma ehtiyacını azaldaraq onun sərfiyyatını minimuma endirir. Binanın dizaynı təbii ventilyasiya sistemlərini dəstəkləyir, bu da kondisioner istifadəsini azaldır. Tikinti zamanı daxili interyerlərdə təkrar emal edilmiş materiallardan istifadə edilmişdir. Binada su sərfiyyatını azaltmaq üçün ağıllı su idarəetmə sistemləri mövcuddur. Yağış suyu toplanaraq müəyyən məqsədlər üçün istifadə edilir.

Seattle Mərkəzi Kitabxanası yalnız bir kitabxana deyil, həm də innovasiya, ekoloji məsuliyyət və müasir memarlıq prinsiplərinin ideal birləşməsidir. Onun dizaynı kitabxana konsepsiyasına yeni nəfəs gətirərək, ictimaiyyətə həm estetik, həm də funksional xidmət göstərir.

Ekoloji dayanıqlılıq və texnologiya yeniliklər sahəsində diqqət çəkən nümunələrdən biri də Sinqapurda yerləşən Bishan Kitabxanasıdır. 2006-cı ildə açılmış bu kitabxana həm unikal memarlıq dizaynı, həm də fəaliyyət konsepsiyası ilə diqqət çəkir. Bishan Kitabxanası təbii işıqlandırmadan geniş istifadə olunması və enerjiyə qənaət edən dizayn xüsusiyyətləri ilə seçilir. Bu yanaşma təkcə enerji sərfiyyatını azaltmaqla kifayətlənmir, həm də oxuculara daha rahat və təbii mühit yaradır. Bu səbəbdən Bishan Kitabxanası həm ekoloji dayanıqlılıq, həm də mədəni inkişaf baxımından diqqətəlayiq bir obyekt olaraq fərqlənir.

Digər bir nümunə isə Meksikada yerləşən Vasconcelos Kitabxanasıdır. Kitabxana öz adını məşhur meksikalı yazıçı, filosof və təhsil naziri olan José Vasconcelosdan alıb. Bu, kitabxananın təhsil və mədəniyyət sahəsindəki rolunu vurğulayan simvolik bir seçimdir.

2006-cı ildə istifadəyə verilən bu kitabxana Meksikanın tanınmış memarı Alberto Kalach tərəfindən layihələndirilib və geniş ərazidə yerləşən yaşıl məkanlarla harmonik bir dizayn təqdim edir. Bina təbii işıqlandırmaya və havalandırmaya üstünlük verən bir şəkildə dizayn edilib ki, bu da enerji sərfini əhəmiyyətli dərəcədə azaldır. Vasconcelos Kitabxanası yalnız Meksika üçün deyil, bütün dünya üçün davamlı memarlıq, mədəni inkişaf və biomüxtəlifliyin qorunması sahəsində önəmli bir nümunədir. Onun dizaynı və fəaliyyəti müasir kitabxana anlayışına fərqli və yenilikçi bir perspektiv gətirir.

***Azərbaycanda keçirilən COP29 (BMT-nin İqlim Dəyişiklikləri üzrə Tərəflər Konfransı) yaşıl kitabxana konsepsiyasının inkişafına geniş və çoxşaxəli təsir göstərə bilər. Hazırda ölkədə tam olaraq "yaşıl kitabxana" statusuna uyğun kitabxanalar mövcud olmasa da, belə bir yanaşmanın tətbiqi potensialı böyükdür. Məsələn, Azərbaycan Milli Kitabxanası bu istiqamətdə mühüm addımlar ataraq rəqəmsal resurslara keçid edir və bununla da kağız istifadəsini azaltmağa çalışır. Belə təşəbbüslər COP29-un tövsiyələri ilə uzlaşaraq ölkədə yaşıl kitabxana konsepsiyasının tətbiqi üçün praktik nümunə ola bilər və oxuculara müasir və əlverişli xidmətlər təqdim etməyə imkan yaradar.***

COP sammitləri qlobal iqlim siyasətinin müəyyənləşdirildiyi əsas platforma kimi çıxış edir və burada qəbul edilən qərarlar müxtəlif sahələrə, o cümlədən kitabxana və mədəniyyət mərkəzlərində dayanıqlılıq təşəbbüslərinin inkişafına təkan verə bilər. Bu sammitlərdə qəbul olunan strategiyalar ekoloji məsuliyyətin artırılması, enerji səmərəliliyi və yaşıl texnologiyaların tətbiqi ilə belə mərkəzlərin daha davamlı fəaliyyət göstərməsinə şərait yaradır. Bu Azərbaycanda innovativ və davamlı kitabxana modellərinin yaradılmasına imkan verə bilər.

## "AzerGold" QSC-də Qvineya-Bisau Respublikasının nümayəndə heyəti ilə görüş keçirilib

***"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov dekabrın 2-də ölkəmizdə səfərdə olan Qvineya-Bisau Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq və icma naziri Karlos Pinto Pereiranın rəhbərlik etdiyi, ətraf mühit, biomüxtəliflik və iqlim dəyişikliyi naziri Viriato Kassamanın da daxil olduğu nümayəndə heyəti ilə görüşüb.***

Zakir İbrahimov "AzerGold" QSC-nin fəaliyyət sahələri üzrə əldə etdiyi nailiyyətlər, Səhmdar Cəmiyyətin strateji planları və dağ-mədən sektorunda iqtisadi səmərəliliyin artırılması, eləcə də yerli və beynəlxalq qanunvericiliyin tələblərinə uyğun ətraf mühitin mühafizəsi, sosial məsuliyyət istiqamətində görülən işlər haqqında bəhs edib.

"AzerGold" QSC-nin xarici tərəfdaşlarla uğurlu əməkdaşlıq təcrübəsinin olduğunu bildirən Zakir İbrahimov fəaliyyətin gələcəkdə ölkə hüdudlarından kənarda da genişləndirilməsinin QSC-nin strateji planlarına daxil olduğunu qeyd edib. Sədr mineral resurslarla zəngin olan Afrika qitəsinin də maraq dairəsində olduğuna diqqət çəkib.




Qvineya-Bisau Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq və icma naziri Karlos Pinto Pereira ölkəsinin ikitərəfli münasibətlərin möhkəmdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb, dağ-mədən sahəsində mövcud imkanları və investorlar üçün yaradılan şəraitdən bəhs edib.

Ölkəsində dağ-mədən sahəsinin ilkin inkişaf mərhələsində olduğunu bildirən Qvineya-Bisau Respublikasının ətraf mühit, biomüxtəliflik və iqlim dəyişikliyi naziri Viriato Kassama isə "AzerGold" QSC-nin təcrübəsindən faydalanmaq niyyətində olduqlarını ifadə edib. Nazir ölkəsinin ən son geoloji xəritəsinin 1970-ci illərdə keçmiş SSRİ-dən olan mütəxəssislər tərəfindən hazırlandığını və müasir tədqiqat metodları ilə perspektivli sahələrin müəyyən edilməsinə böyük ehtiyac olduğunu qeyd edib.

Tərəflər "AzerGold" QSC-nin innovativ geoloji axtarış metodları və müasir tədqiqat üsullarından istifadə təcrübəsi nəzərə alınaraq, bu sahədə əməkdaşlığın qurulması ətrafında fikir mübadiləsi aparıblar. Görüşün davamında "AzerGold" QSC tərəfindən Qvineya-Bisau ərazisində mövcud perspektivli sahələrin ilkin ehtiyatlarının qiymətləndirilməsi işlərinin aparılmasına dair ilkin razılıq əldə edilib. Bu məqsədlə Səhmdar Cəmiyyəti tərəfindən xəritəalma işləri, axtarış-qiymətləndirmə mərhələsi üzrə ölkə ərazisində qeyri-invaziv axtarış metodu hesab edilən hiperspektral peyk çəkilişləri həyata keçirilməli, məlumatların təhlili, o cümlədən ilkin geoloji kəşfiyyat işləri icra olunmalıdır.

***Görüşdə Azərbaycan şirkətinin xüsusilə qızıl mədənlərinin istismarı üzrə təcrübəsi nəzərə alınaraq, gələcəkdə kəşf ediləcək qızıl mədənlərində hasilat işlərinin aparılmasına dair təşəbbüsləri də dəyərləndirməyə hazır olduğu diqqətə çatdırılıb.***

Görüşün nəticəsi olaraq "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov və Qvineya-Bisau Respublikasının ətraf mühit, biomüxtəliflik və iqlim dəyişikliyi naziri Viriato Kassama arasında dağ-mədən sahəsində məlumat mübadiləsinə dair Məlumatların Gizli Saxlanılması (NDA – Non-disclosure agreement) sənədi imzalanıb.

# Təhsildə irrasional rasionallaşma

***İstənilən yeniliyin, sosial-iqtisadi proseslərin 2 tərəfi var: müsbət və mənfi tərəfləri. Ona görə də bu sahədə hər hansı addım atılanda əvvəlcə bunun nəticələrini hərtərəfli təhil etmək, sonra qərar vermək lazımdır.***



*dos. İlham ƏHMƏDOV, təhsil məsələləri üzrə ekspert*

Məktəblərdə adambaşı maliyyələşdirmənin də sosial-iqtisadi yenilik kimi öz müsbət və mənfi cəhətləri var. Belə məsələlərdə tələsik və ya yarımçıq qərarlar vermək sonda ciddi problemlər yarada bilər. Təhsil kimi həssas sosial sahədə qərarların qəbulu hərtərəfli təhlil edilməli, sonda qərar verilməlidir. Yalnız bu halda düzgün qərarlar qəbul edilə bilər.

Son illər təhsil sistemində, o cümlədən məktəblərdə adambaşı maliyyələşdirmə modeli tətbiq edilir. Burda əsas məqsəd təhsilin maliyyələşdirilməsi üçün optimal variantların axtarışıdır.

Bu modeldə məktəblərin maliyyələşməsi şagirdlərin sayına əsasən aparılır. Yəni, məktəbin nə qədər çox şagirdi varsa, bir o qədər də çox maliyyə vəsaiti alır və ya əksinə. Bu model bəzi ölkələrdə artıq tətbiq edilib. Son günlər bizim ölkədə də bu geniş müzakirələrə səbəb olub.

Belə ki, keçən həftə Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsində elm və təhsil naziri Emin Əmrullayev deyib: ***"Təhsil sahəsinin ən böyük problemi komplektləşdirilmiş məktəblərin sayının az olmasıdır. 4400 məktəbimizin təxminən 1500-də şagird sayı 100-dən azdır. Bunun ağrılı proses olduğunu bilirik. Amma bunu etməliyik".*** Və qəti sözünü deyib: ***"Sözün qısası, rasionallaşmaya getməliyik."***

Az sonra ictimaiyyət bu fikrə öz etirazını bildirdi, sosial şəbəkələrdə və KİV-də buna əks olan müxtəlif fikirlər səsləndi. Millət vəkilləri, ziyalılar, təhsil ekspertləri bu məsələyə öz münasibətlərini bildirdilər. Biz də bu mövzuda bir məqalə yazmışdıq (İlham Əhmədov. Təhlükəli və səmərəsiz rasionallaşma. (https://paralel.az/).

Bir neçə gün sonra nazir bu məsələ ilə əlaqəli öz sözlərinə sosial şəbəkələrdə aydınlıq gətirməli oldu, yəni fikrini bir az yumşaltdı: ***"Daha dayanıqlı və keyfiyyətli təhsil imkanlarının yaradılması məqsədilə qeyd olunan azkomplektli məktəblərin rasionallaşdırılması həyata keçirilir və bu proses mərhələli şəkildə aparılacaq."***

Gəlin məktəblərdə adambaşı maliyyələşdirmənin, məktəblərin rasionallaşmasının nə olduğuna, bunun müsbət və mənfi cəhətlərinə nəzər salaq. Bu proseslərin müsbət cəhətlərini təhsil menecerləri çox təbliğ edib, amma mənfi tərəflərindən danışmayıblar. Bu məsələdə düzgün qərar vermək üçün prosesin müsbət tərəfləri ilə yanaşı, mənfi tərəflərini də demək, təhlil etmək lazımdır.

Bu səbəblərdən məktəbdə adambaşına maliyyələşdirmənin mənfi cəhətlərini qeyd edək:

*1. Kənd yerlərindəki məktəblər üçün yaranan problemlər. Şagird sayı az olan kənd məktəbləri kifayət qədər maliyyə vəsaiti əldə edə bilmir. Bu, onların fəaliyyətini davam etdirməkdə çətinliklər yaranmasına səbəb olur.*

*2. Prosesin keyfiyyətə yox, kəmiyyətə fokuslanması. Məktəblər daha çox şagird cəlb etmək üçün tədrisin keyfiyyətini yox, kəmiyyətini artırmağa diqqət edə bilər.*

*3. Zəif təhsil göstəriciləri olan məktəblərin durumunun pisləşməsi. Şagird sayına əsaslanan maliyyələşmə zəif təhsil göstəriciləri olan məktəblər üçün əlavə çətinliklər yaradır, çünki onlar daha az şagird cəlb edir və nəticədə daha az maliyyə alarlar.*

*4. Təhsildə rəqabət mühitinin pozulması. Böyük şəhərlərdə yerləşən məktəblər adətən daha çox resurs və infrastruktur üstünlüyünə malik olduğu üçün daha çox şagird cəlb edə bilər. Bu isə kiçik məktəblərin və ya ucqar ərazilərdəki məktəblərin maliyyə vəziyyətini zəiflədir.*

*5. Məktəblərin əlavə ehtiyacları nəzərə alınmır. Adambaşı maliyyələşmə yalnız şagird sayını nəzərə alır, lakin xüsusi təhsil ehtiyacları olan şagirdlər və ya zəif infrastrukturla işləyən məktəblərin əlavə ehtiyaclarını nəzərə almır.*

*6. Maliyyə qeyri-sabitliyi. Şagird sayında baş verən dəyişikliklər məktəbin maliyyə sabitliyinə də təsir edir. Bu, vəziyyət xüsusən əhalinin seyrək olduğu bölgələrdə problem yarada bilər.*

Məktəblərdə adambaşına maliyyələşdirmə təhsil sistemində müəyyən ədalətliliyi qismən təmin edir, amma bu modelin tətbiqi hər bir məktəbin özünəməxsus xüsusiyyətlərini və ehtiyaclarını nəzərə almır. Bu modelin mənfi təsirlərini azaltmaq üçün əlavə dəstək mexanizmləri olmalıdır, xüsusi ilə ucqar bölgələrdə yaşayan şagirdlər üçün əlavə imkanlar yaradılmalıdır. Bu zaman həm də təhsilin keyfiyyəti ilə bağlı monitorinq sistemləri tətbiq edilməli, təkcə kəmiyyətə deyil, həm də keyfiyyətə diqqət yetirilməlidir. Məktəblərdə adambaşı maliyyələşdirmənin əsas məqsədi məktəblərin rasionallaşdırılmasına nail olmaqdır.

Məktəblərin rasionallaşdırılmasının da müsbət və mənfi cəhətləri var. Hökumət hər hansı islahat aparanda ilk növbədə bunun insanlara ziyanlı olub-olmamasını diqqətdə saxlamalıdır. Məktəblərin rasionallaşdırılmasının mənfi cəhətləri kmi bunları qeyd edə bilərik:

*1. Şagirdlər üçün çətinliklər. Məktəblərin bağlanması və ya birləşdirilməsi zamanı şagirdlərin yeni məktəblərə daşınması və ya uyğunlaşması problemlər yarada bilər.*

*2. Kənd yerlərindəki çətinliklər. Ucqar bölgələrdə məktəblərin bağlanması təhsilə çıxışı çətinləşdirə bilər.*

*3. Cəmiyyətin narazılığı. Yerli icmalar, xüsusilə kənd yerlərində məktəblərin bağlanmasına qarşı mənfi münasibət göstərə bilər.*

*4. Sosial problemlər. Məktəblərin bağlanması müəllimlərin işsiz qalmasına səbəb ola bilər.*

*5. Keyfiyyət fərqlərinin dərinləşməsi. Böyük şəhərlərlə kənd yerləri arasındakı təhsil fərqlərini daha da artıra bilər.*

Məktəblərin rasionallaşdırılması təhsil sistemində islahatların həyata keçirilməsinin mühüm bir hissəsidir. Lakin bu proses icra edilərkən cəmiyyətin ehtiyacları, sosial problemlər və regional fərqlər diqqətə alınmalıdır. Uğurlu rasionallaşdırma yalnız maliyyə səmərəliliyi deyil, həm də təhsilin keyfiyyətinin artırılması ilə nəticələnməlidir. Rasionallaşdırmanın mənfi təsirlərini azaltmaq üçün xüsusi sosial dəstək proqramlarının həyata keçirilməsi zəruridir.

**Bəs bu problemləri, hər hansı sosial narazılıq yaratmadan həll etmək olarmı?**

**Əlbəttə**. Bu problem müxtəlif ölkələrdə yaranıb, gələcəkdə də yaranacaq və onlar bu problemin həllinə nail olublar.

**Bu barədə növbəti saylarımızda.**

# Strateji valyuta ehtiyatları 3 illik idxalı maliyyələşdirməyə kifayət edir




2024-cü ilin üçüncü rübünün sonuna Azərbaycanın strateji valyuta ehtiyatları 73.5 milyard ABŞ dolları təşkil edib.

Banker.az xəbər verir ki, bu barədə Mərkəzi Bankın "Pul siyasəti icmalı"da bildirilir.

Dövr ərzində ölkənin strateji valyuta ehtiyatları beynəlxalq qəbul edilmiş kifayətlilik normalarını üstələməkdə davam edib.

Bu da əmtəə və xidmətlərin 35.5 aylıq (təxminən 3 illik) idxalını maliyyələşdirmək üçün kifayətdir.

Strateji ehtiyatlar manatla pul kütləsini (M2) 3.5 dəfə üstələyib (01.10.2024 tarixinə olan M2 pul aqreqatı götürülməklə).

AMB bildirir ki, bu göstəricilər ölkənin xarici və daxili iqtisadi şoklara qarşı müqavimət qabiliyyətinin yüksək səviyyədə olduğunu nümayiş etdirir.

# Ümummilli lider Heydər Əliyevin anım gününə həsr edilmiş "Orqan transplantasiyasında müasir dövrün çağırışları" mövzusunda Beynəlxalq Elmi Konfrans keçiriləcək




10 dekabr 2024-cü il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin, Mərkəzi Gömrük Hospitalının və Türkiyənin Florence Nightingale Xəstəxanalar Qrupunun birgə təşkilatçılığı, ABBOT şirkətinin dəstəyi ilə ümummilli lider Heydər Əliyevin anım gününə həsr edilmiş "Orqan transplantasiyasında müasir dövrün çağırışları" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək. Əyani şəkildə həyata keçirilməsi planlaşdırılan beynəlxalq elmi konfransda "Azərbaycanda orqan transplantasiyasının təşkilində dünya təcrübəsinin tətbiqi" "Qaraciyər transplantasiyası: təcrübə, çağırışlar və perspektivlər" və "Böyrək transplantasiyası: müasir yanaşmalar və gələcək imkanlar" başlıqlı 3 paneldə Azərbaycan və Türkiyədən olan yüksəkixtisaslı mütəxəssislər tərəfindən ümumilikdə 13 məruzə təqdim ediləcək. Konfrans panel müzakirələr və sual-cavab sesiyaları vasitəsilə interaktiv şəklində həyata keçiriləcək.

Konfrans proqrama uyğun olaraq xüsusilə ümumi cərrah, transplantoloq, ürək-damar cərrahı, uroloq, nefroloq, terapevt və infeksionist ixtisasına malik həkimlər və rezidentlər üçün nəzərdə tutulmuşdur.

Proqramı tamamlayan hər bir iştirakçıya 7 DTT balı və sertifikat veriləcək.

Yerlər məhdud olduğu üçün qeydiyyatdan keçmək MÜTLƏQDİR!

Konfransda iştirak ödənişsizdir. Hər kəs konfransda iştirak üçün dəvətlidir!

**Qeydiyyat linki:** https://forms.gle/AJ6bt9WmJL96FkbC6

**Proqramla tanış olmaq üçün link:** https://customshospital.az/orqan-transplantasiyasinda-muasir-dovrun-cagirislari

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "Bu il nağdsız ödənişlərdə böyük irəliləyiş əldə olunub"

***"Bu il nağdsız ödənişlər sahəsində böyük irəliləyiş əldə olunub, kartlarla aparılmış nağdsız ödənişlərdə 66 faiz artım olub".***



Bu barədə Mərkəzi Bankın baş direktoru Vüsal Xəlilov Bakıda keçirilən Beynəlxalq Bankçılıq Forumunda deyib.

"14 elektron pul təşkilatı, 8 ödəniş təşkilatı və 1 ödəniş operatoru Mərkəzi Bank tərəfindən lisenziya əldə edib. Bu proses təşkilatların nəzarət subyekti olaraq daha dayanıqlı olmasını və vətəndaşların, ümumiyyətlə maliyyə sektorunun qorunmasını hədəfləyir. Açıq bankçılıq və açıq maliyyə təşəbbüsü inklüziv, şəffaf və effektiv bir maliyyə sisteminin yaradılmasını nəzərdə tutur. Bu yanaşma banklar, fintexlər üçün yeni imkanlar yaradır. Banklar üçün bu, yeni gəlir mənbələri, optimallaşdırılmış xidmətlər və təkmilləşdirilmiş müştəri təcrübələri verir", - deyə baş direktor əlavə edib.

# Azərbaycan nümayəndə heyəti İstanbulda Dünya Halal Sammitində iştirak edib



İstanbulda 10-cu Dünya Halal Sammiti və sammit çərçivəsində "MÜSİAD Expo" 20-ci Beynəlxalq Ticarət və "Halal Expo" sərgiləri keçirilib.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, nazirin birinci müavini Elnur Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti tədbirdə Azərbaycanı təmsil edib. Sammitdə ölkəmizin İslam Konfransı Təşkilatının missiya və prinsiplərinə göstərdiyi hörmət, eyni zamanda zəngin tarixi və mədəni dəyərləri ilə Azərbaycanın İslam həmrəyliyi irsinə verdiyi töhfələr diqqətə çatdırılıb. Təşkilata üzv dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi, iqtisadi-ticarət əlaqələrinin və biznesin inkişafı üçün prioritet istiqamətlər qeyd olunub.

Bundan başqa, halal sənayenin davamlı inkişafı üçün əməkdaşlığın və innovasiyaların vacibliyi qeyd edilib, bu sektorun gələcək inkişafında etik standartların və texnoloji yeniliklərin inteqrasiyasına xüsusi diqqət yetirilməli olduğu vurğulanıb. Yaşıl texnologiyaların tətbiqinin ətraf mühitə təsirini əhəmiyyətli dərəcədə azalda biləcək təşəbbüslərin və alətlərin dəstəklənməsinin vacibliyi qeyd olunub.

## ALLAH RƏHMƏT ELƏSİN

Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə
**RAUF HƏŞİMOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azad Quliyev və Mansur Mədətov yaxın dostları
**RAUF HƏŞİMOVUN**
0vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**